

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 69 (23.481)

11 may 2020-ci il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 10-da, xalqımızın xilaskar oğlu Heydər Əliyevin doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarı önünə gül qoyub, ulu öndərin xatirəsini ehtiramla anıblar.

Sonra dövlətimizin başçısı və xanımı ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yodbrom zavodunun ərazisində ağac əkiblər.

Dövlətimizin başçısının tapşırığına əsasən 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.



## Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü qeyd olunub





Mayın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Ölkəmizə rəhbərliyi dövründə ən çətin məqamlarda xalqının köməyinə çatan, Azərbaycanı məhv olmaq, parçalanmaq və tarix səhnəsindən silinmək təhlükəsindən xilas edən dahi rəhbərin mənalı ömür yolu bir məqsədə – xalq və Vətən naminə fəaliyyətə həsr olunmuşdur. Heydər Əliyev siyasi xətti Azərbaycanı müstəqilliyə qovuşdurmuş, parçalanmaq təhlükəsindən xilas etmiş, inkişaf və tərəqqi yoluna çıxarmışdır.

Ümummilli liderimiz 1969-1982-ci illərdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmiş, güclü iqtisadi potensial yaradılmışdır. Bu dövrdə başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik və müstəqillik ideyasının əsas hərəkətverici qüvvəsi olmuşdur. Bu mənada, ümummilli liderin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcıdır. Dahi şəxsiyyət bu barədə deyirdi: ***"1970-ci illərdə görülən işlər, yaradılan böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır".***

Bu inkişaf və tərəqqi ötən əsrin 90-cı illərində öz yerini dağıdıcılıq və təsərrüfatsızlıq dövrünə buraxmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı, eləcə də Naxçıvanı uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac vermişdi. Belə bir şəraitdə ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı tarixi zərurət idi.

Xalqımızın böyük oğlu hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, onu zamanın ağır məngənəsindən xilas etmişdir. 1990-cı ilin 22 iyulunda Naxçıvana gələn ulu öndər qədim diyarı işğaldan qorumaqla yanaşı, həm də bütövlükdə Azərbaycanın xilasına başlamışdır. Ulu öndərin rəhbərliyi ilə 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında üçrəngli dövlət bayrağımız qəbul olunmuş, milli ordu quruculuğuna və iqtisadi islahatlara başlanmış, bir sözlə, müstəqil dövlətçiliyimizin əsasları yaradılmışdır.



Həmin dövrdə Naxçıvanda görülən bu işlərin əksinə olaraq Azərbaycan parçalanmaq, işğal və məhv olmaq təhlükəsi qarşısında idi. Belə bir şəraitdə xalq nicat yolunu yenidən ulu öndərin siyasi hakimiyyətə qayıdışında gördü. 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmaqla Milli Qurtuluş tariximizin əsasını qoymuşdur. ***"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır"***, – deyən ulu öndərin zəngin dövlətçilik təcrübəsi, qətiyyəti, uzaqgörənliyi sayəsində ölkəmizdə siyasi sabitlik bərqərar olmuş, Dağlıq Qarabağ cəbhəsində atəşkəs əldə edilmiş, irimiqyaslı iqtisadi layihələr icra olunmuş, qüdrətli Azərbaycan Ordusu yaradılmışdır. Hərc-mərclik və anarxiyaya son verilmiş, qanunun aliliyi təmin olunmuş, vətəndaş həmrəyliyi bərqərar edilmiş, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırılmışdır.

Azərbaycan xalqının hələ neçə-neçə nəsli Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə faydalanacaqdır. Çünki ümummilli liderin şərəfli ömür yolu əsl kamillik nümunəsidir. Bu nümunə Azərbaycan xalqının həm mənəvi, həm siyasi, həm də sosial-iqtisadi uğurlarının əsasıdır.

Bu gün Azərbaycanın müstəqillik tarixinin ən parlaq səhifələri yazılır. Ölkəmizdə ulu öndərin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb. Güclü ordu və möhkəm iqtisadi potensial Azərbaycanı bölgədə və dünyada etibarlı tərəfdaşa və lider ölkəyə çevirib. Artıq Azərbaycan dünyada inkişafın bütün istiqamətləri üzrə öz modelini ortaya qoyur. Bütün bunların səbəbini isə ölkə Prezidenti cənab İlham Əliyev belə izah edir: ***"Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilir. Bu siyasətin alternativi yoxdur. Son illərin təcrübəsi onu göstərir ki, ölkəmiz və xalqımız yalnız bu yolla qabağa gedə bilər. Biz ulu öndərin siyasi irsinə sadiqik, onun siyasətini davam etdiririk, zənginləşdiririk".***

Bu gün ulu öndər Heydər Əliyevin quruculuq xəttinin uğurla davam etdirildiyi Naxçıvan Muxtar Respublikası da inkişafın yeni

*Ardı 2-ci səhifədə*

mərhələsinə qədəm qoymuşdur. Həyata keçirilən iqtisadi islahatlar nəticəsində qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitlik yaranmış, iqtisadiyyat dinamik inkişaf etmiş və əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev Muzeyinə gələrək ümummilli lider Heydər Əliyevin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxmışdır.

Bildirilmişdir ki, muzey ulu öndərin həyat və fəaliyyətinin, siyasi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı yerinə yetirir. Burada nümayiş etdirilən eksponatlar ulu öndərin ictimai-siyasi fəaliyyətini, keçdiyi həyat yolunu özündə əks etdirən dəyərli mənbələrdir. Hazırda muzeyin fondunda 4807 eksponat vardır.

Heydər Əliyev Muzeyinin əməkdaşları ilə görüşən Ali Məclisin Sədri onlara təşəkkürünü bildirərək demişdir: Heydər Əliyev Muzeyi Azərbaycanda ümummilli liderimizin sağlığında – 1999-cu ildə yaradılan ilk muzeydir. Muzeyin ilk ziyarətçisi də ümummilli liderimiz Heydər Əliyev olmuş, dahi şəxsiyyət muzeyin fəaliyyəti ilə bağlı tapşırıq və tövsiyələrini vermişdir. Ötən dövrdə muzeyin fondu xeyli zənginləşmiş, mühüm tədbirlər keçirilmişdir. Muzeyin yeni eksponatlarla zənginləşdirilməsi bundan sonra da diqqətdə saxlanılmalı, internet saytı yenilənməli, virtual fəaliyyət təmin olunmalı, ziyarətçilərə ətraflı məlumat verilməli, dahi şəxsiyyətin həyat və fəaliyyəti təbliğ olunmalıdır.

Ulu öndər Heydər Əliyev siyasi xətti müstəqil Azərbaycanın dünənini və bu gününü yaşadan, gələcək inkişafına etibarlı zəmin yaradan dövlətçilik yoludur. Dahi şəxsiyyətin həyatı və siyasi fəaliyyəti Azərbaycan xalqının milli sərvətidir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində Sahil Parkı istifadəyə verilib









Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Heydər Əliyev siyasəti yaşamalıdır. Bu, zamanənin tələbidir. Bu, yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir".***

Ulu öndərin siyasi xətti Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf və tərəqqi yoludur. Bu gün muxtar respublikada dahi rəhbərin yolunun davam etdirilməsi çoxşaxəli inkişafın əsasını qoymuş, quruculuq işlərinin miqyası genişlənmişdir. İnsanların rahat yaşayışına xidmət edən infrastrukturun yaradılması, yeni sosial obyektlərin, istehsal sahələrinin, inzibati və yaşayış binalarının, müasir yolların istifadəyə verilməsi ilə yanaşı, ətraf mühitin mühafizəsi və əhalinin asudə vaxtının səmərəli təşkili də diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 oktyabr tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Sahil Parkının yaradılması da bu tədbirlərin davamıdır.

Mayın 10-da – ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümündə Naxçıvan şəhərində Sahil Parkı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən kompleks quruculuq işləri Naxçıvan şəhərini də əhatə etmişdir. İnzibati və yaşayış binalarının istifadəyə verilməsi ilə yanaşı, yeni parklar salınır, sakinlərin və turistlərin mənalı istirahəti təşkil olunur. Naxçıvan şəhərində tarixi görkəm qorunub saxlanılmaqla yanaşı, həm də müasir şəhər infrastrukturu yaradılıb. Sahil Parkının istifadəyə verilməsi də bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Mirsənani Seyidov yaradılan şəraitə görə şəhər sakinləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümündə Naxçıvan şəhərində 20 hektarlıq yeni parkın istifadəyə verildiyini bildirmiş, ulu öndərin doğum günü və yeni parkın açılışı münasibətilə muxtar respublika sakinlərini təbrik edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin həyatı Azərbaycan xalqına və dövlətinə xidmətdən ibarət olmuşdur. Həyat və fəaliyyətini xalqına həsr edən ulu öndər sağlığında fenomen şəxsiyyətə çevrilmiş, Azərbaycan xalqının böyük məhəbbətini qazanmışdır. Bu gün də ulu öndərimizin siyasi xətti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ali Məclisin Sədri demişdir: İnsanlar vardır ki, həm sağlığında, həm də dünyasını dəyişəndən sonra onların əməlləri yaşayır, xalqına və dövlətinə uğur gətirir, ölkəsinin inkişafına xidmət edir. Ümummilli liderimiz də belə şəxsiyyətlərdəndir. O, sağlığında Azərbaycan dövlətini müstəqillik və inkişaf yoluna çıxarmışdır. Bu gün də dahi şəxsiyyətin yolu Azərbaycan xalqının və dövlətinin inkişafına xidmət edir. Ona görə də hər il ulu öndərin doğum günü Azərbaycanda bayram əhval-ruhiyyəsi ilə qeyd olunur. Dahi şəxsiyyətin doğum günündə Naxçıvan şəhərində yeni parkın istifadəyə verilməsi də ulu öndərin xatirəsinə və onun şəxsiyyətinə olan böyük ehtiramın daha bir ifadəsidir. Bu gün dünyada böyük problemlər var. Lakin ümummilli liderimizin yolunun davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda sabitlik, inkişaf və tərəqqidir.

Ali Məclisin Sədri ulu öndərin doğum günündə Naxçıvan şəhərində yeni parkın istifadəyə verilməsi münasibətilə bir daha muxtar respublika sakinlərini təbrik etmiş, xoş istirahətlər arzulamışdır.

Sonra Ali Məclisin Sədri parkda yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, ümumi sahəsi 20,6 hektar olan Sahil Parkında 2 idman meydançası, tennis kortu və 4 stolüstü tennis quraşdırılmış, 100 yerlik kafe istifadəyə verilmişdir. Hər birinin sahəsi 450 kvadratmetr olan idman meydançalarında müxtəlif idman qurğuları qoyulmuşdur ki, bu da sakinlərin fiziki sağlamlığı baxımından mühüm əhəmiyyət kəsb edir. Parkın ərazisində uzunluğu 2834 metr olan velosiped zolağı salınmış, dayanacaq quraşdırılmış və 11 velosiped alınmışdır.

Parkda 2 şəlalə tikilmiş, Naxçıvançay yatağında yaradılmış göldə 3 fəvvarə quraşdırılmışdır. Ərazidə avtomobil dayanacaqları yaradılmış, abadlıq işləri görülmüş, meyvə, dekorativ ağaclar və gül kolları əkilmiş, 78 müxtəlif heyvan fiquru qoyulmuşdur. Parkın ərazisi müasir işıqlandırma və suvarma sistemi ilə təchiz edilmiş, hər birinin tutumu 31 ton olan 4 su çəni və 4 nasos quraşdırılmışdır. Yeni istirahət parkı Naxçıvanın abad ünvanlarından biri kimi şəhərin simasını daha da gözəlləşdirmiş, sakinlərin sevimli istirahət guşələrindən birinə çevrilmişdir.

Ali Məclisin Sədri tədbir iştirakçıları ilə xatirə şəkli çəkdirmiş, Sahil Parkının turist marşrutlarına daxil edilməsi və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Muzeyinə onlayn ekskursiya təşkil olunub



*May ayının 10-da Heydər Əliyev Muzeyinə onlayn ekskursiya təşkil olunub. Ekskursiyanı muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev aparıb.*

O, əvvəlcə ümummilli liderin misilsiz dövlət idarəçiliyindən bəhs edərək vurğulayıb ki, Azərbaycanın son qırx ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi ulu öndərin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz ulu öndərin idarəçilik bacarığının bariz göstəricisidir.

Sonra Heydər Əliyev Muzeyinin yaradılması barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, ümummilli liderin adını daşıyan muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə Naxçıvan şəhərində yaradılıb, 1999-cu il 10 may tarixdən fəaliyyət göstərməyə başlayıb. 2005-2006-cı illərdə əsaslı olaraq yenidən qurulan muzeyin 20 dekabr 2006-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə təntənəli açılış mərasimi keçirilib.

Onlayn ekskursiya zamanı bildirilib ki, fəaliyyətə başlayanda 420 eksponatla tamaşaçılara xidmət göstərən muzeydə hazırda 4700-dən çox eksponat mühafizə olunur. Həmin eksponatlar ümummilli liderin dövlətçilik və siyasi fəaliyyətinin öyrənilməsində, onun mənalı həyatı, zəngin və çoxşaxəli fəaliyyəti barədə faktların gələcək nəslə çatdırılmasında böyük rol oynayır. Azərbaycanın müasir dövlətçilik tarixinin və ümummilli liderimizin siyasi irsinin tədqiqatçıları buradan elmi axtarışlar üçün dəyərli faktlar əldə edirlər. Ekskursiya zamanı ekspozisiyada nümayiş olunan eksponatlar haqqında geniş məlumat verilib.

Onlayn ekskursiya Naxçıvan Dövlət Televiziyası ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında da canlı yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası***
***Mədəniyyət Nazirliyinin***
***mətbuat xidməti***

*Evimizdə, qohum-əqrəbalarımızda yaşayan, 1988-ci ildən başlanan hadisələrin şahidi və iştirakçısı olmuş yaxınlarımın o dövrlə bağlı söhbətlərini tez-tez xatırlayıram. Doğma diyarımız üçün çətin və məşəqqətli o illərlə bu gün fikrimdə qəhrəman bir obraz kimi təsvir olunur Naxçıvan. Tarixin bütün fitnə-fəsadlarına, düşmən acgözlüyünə, özbaşınalığına, xaosa şahidlik edən yurdumuzun iqtisadiyyatı zəifləmiş, düşmən hədəfinə çevrilmiş irsimiz, dəyərlərimiz uçurumun lap kənarında son bir addımdan asılı qalıbmış. Dağ-daş da küsübmüş. Hətta tarix də varlığını göstərməkdən çəkinib gizlənibmiş özünü qorumaq naminə. Çünki əmanət olunanlar babalarımızın bir yadigarı idi. Gələcək nəsillərə nə cavab verəcəkdilər?*



# Böyük yolun başlanğıcı

## *Keçmişin çətinlikləri, bu günün zəfəri*

İşıqsız qalmış küçələrdə qaranlıq hökm sürürmüş. Bu yoxluğun içində, sanki göy üzü də şikayət edirmiş olanlardan. Küçələrdə hər an güllə səsi ilə qarşılaşa bilmək qorxusu insanların canından çıxmırmış. Şəraitsizlikdən, yoxsulluqdan meydana gələn cinayətkarlıq, oğurluq da qaçılmaz hal alıbmış. Üzləşilən çətinliklər yalnız belə təhlükələrlə kifayətlənmirmiş, daha ağrılısı o imiş ki, çörəklə imtahan olunurmuş insanlar. Səhər tez oyanıb bir tikə çörəyə görə düzülən cərgələrdə saatlarla növbələr elə bil işgəncə növü seçilibmiş. Çörəksiz evə qayıtmaq da az olmurmuş. Həsrətlə çörək gözləyərək qabağa qaçan uşaqların yanındakı dilxorluqlar, ac qalan körpələrin gözlərindəki yoxluğa, aclığa hayqırış səsləri çox utandırırmış böyükləri.

O çətin günlərin bu qədim yurdu tərk etməsi arzusu ilə gecə-gündüz dua edib yatan babalarımızın, nənələrimizin əlçatmaz ümidləri bu gün artıq bizim reallığımızdır. Əlbəttə, bu, asanlıqla başa gəlməyib. Uzun və məşəqqətli bir yol keçilib. Bu böyük yolun başlanğıcı 90-cı illərdən sonra ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başlayıb. Növbəti dəfə yenə dağılmaqda olan ölkəni dahi rəhbər yenidən qurub, yenidən xilas edib. Bugünkü inkişafımızın təməli qoyulub. Muxtar respublikanı isə öz məktəbinin layiqli davamçısına əmanət edib. Dirçəliş üçün düzgün strategiya lazım idi. Bu elə şərəfli və məsul bir vəzifənin öhdəsindən isə yalnız cənab Vasif Talıbov kimi vətənpərvər, müdrik siyasətə sadiq, iradəli bir şəxsiyyət gələ bilərdi. Qətiyyətlə və ardıcıl atılan inamlı və cəsarətli bu addımlar xalqımızı intibaha aparacaq uğurlu tarixi illərin xəbərçisi oldu. Bu tarixi dövrü və son illərə qədər əldə olunan uğurları düşündükcə anlayırıq ki, muxtar respublikanı etibarlı əllərə əmanət etmiş, özündən sonra alternativi olmayan siyasi kurs qoyaraq əbədiyyətə qovuşmuş bir insanın müasiri olmaq xoşbəxtlikdir. Hələ bu müasirliyin, ideyaların təbliğatçısı, davamçısı olmaq daha böyük xoşbəxtlikdir. Son 25 illik tarixdə muxtar respublikada bütün sahələrdə inkişaf gözəçarpan dərəcədə vüsət aldı. Özəl sektor, yeni-yeni istehsal-emal müəssisələri, durmadan artan yüksəliş, yoxsulluq probleminin həlli, iqtisadi inkişafın əldə olunması, dünya miqyaslı layihələrə, təşkilatlara qoşulma günümüzün mənzərələridir.

Hər daşı, qayası ox nişanlı, hər zümrüdgözlü bulağının pıçıltısında ana laylası çağlayan doğma diyarımız ulu Naxçıvan, eləcə də onun qədimdən-qədim paytaxtı binə olunandan bəri heç vaxt, heç bir zaman indiki kimi abadlıq adlı sevincin vüsalına qovuşmayıb. Bunu inkar etməyə kimsənin dili gəlməz. Bu, bir həqiqətdir ki, təxminən, son illər ərzində keçilməz yollar keçib Nuh nəfəsli Əcəmi yurdu. Gözəllik, təmizlik, abadlıq, bir sözlə, intibah naminə. 25 il ərzində elə bir ünvan olmayıb ki, orada yeni bir layihə icra olunmasın, yol çəkilməsin, parklar, istirahət mərkəzləri, yenilənən təhsil ocaqları, kənd mərkəzləri, səhiyyə ocaqları tikilməsin, tarixi abidələr bərpa olunmasın.

Bir qədər geriyə qayıdaq. Hər bir ölkənin müdafiə təhlükəsizliyi sahəsində atılan ən mühüm addımlardan biri də, sözsüz ki, ordu quruculuğudur. Muxtar respublikamızda son 25 il ərzində həyata keçirilən tədbirlərin həcmi və coğrafiyası, sözün həqiqi mənasında, hər birimizdə böyük qürur doğurur. Əlahiddə Ümumqoşun Ordunun yaradılması və ordumuzun maddi-texniki təminatı ilə bağlı görülən işlər, hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, həmçinin muxtar respublikamızdakı hərbi birləşmə və hissələrdə xidmət üçün yüksək səviyyəli şəraitin yaradılması ordumuzun gücünü dəfələrlə artırıb. 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklərin işğaldan azad edilməsi isə ordumuzun qüdrətinin daha bir ifadəsinə çevrilib.

Bütün bu sadalananlar iqtisadi-siyasi dirçəliş, demokratik uğurlar inkişafdan intibaha aparan siyasətin bəhrəsidir. Zamanında sosial-iqtisadi girdab içərisində batıb qalan bir məmləkətdən çiçəklənən, öz iradəsini diktə edən, iqtisadi inkişaf tempinə görə qabaqcıllar cərgəsinə qoşulan, dünyanın bəzəyinə çevrilən Şərqin qapısı Naxçıvanımda bu gün məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər və bu tədbirlərin nəticəsində qazanılan uğurlar yurd yerimizi dünyanın inkişaf etmiş diyarları ilə bir sıraya qoyur. Bunun nəticəsidir ki, gələn qonaqlar, turistlər tarixi abidələrini qoruyan, milli-mənəvi dəyərlərinə sahib çıxan bir diyar kimi heyran qaldıqları bu yurd yerinin adını, gözəlliyini öz əsərlərində, xatirələrində iftixarla qeyd edirlər. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı "Vanderlast" Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil edib. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür.

Hər il yüksək səviyyədə təşkil olunan beynəlxalq idman yarışları, gənclərin könüllü startap layihələrinə qoşulması inkişafın ən böyük göstəricisidir.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci ildə həm İslam Mədəniyyətinin Paytaxtı, həm də ölkəmizin Gənclər Paytaxtı seçilib. Həmçinin ötən il keçirilən Türk Şurası Gənc Liderlərinin Naxçıvan Forumu muxtar respublikanın beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsi oldu. Bir sözlə, inkişaf və tərəqqi hər sahədə yeniliklərlə geridə qalan çətin illərə meydan oxuyur.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu "Caspian European Club"un 2017-2018-ci illər üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində isə Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq lider olub.

Bunun ifadəsini real rəqəmlər də sübut edir. Elə götürək 2020-ci ilin yanvar-mart aylarının qısa statistikasını. Bəhs olunan dövrdə muxtar respublikada 251 milyon 769 min 600 manat dəyərində sənaye məhsulu istehsal olunub. Ümumi inkişafın təmin edilməsində vəsait qoyuluşlarının mühüm rol oynadığını nəzərə alaraq muxtar respublikada 2020-ci ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 189 milyon 403 min 700 manat vəsait yönəldilib. Bu, bir il öncəki göstəricidən 0,4 faiz çoxdur. Bu göstərici ölkənin digər iqtisadi rayonları ilə müqayisədə muxtar respublikamızda əsas kapitala vəsait qoyuluşlarının daha çox olduğunu deməyə əsas verir. Həmin vəsaitin 177 milyon 216 min 500 manatı və ya 93,6 faizi tikinti-quraşdırma işlərində istifadə olunub. Belə ki, həmin dövrdə 68 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 169 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri hazırda davam etdirilir.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi də diqqətdə saxlanılıb. Belə ki, ilin ilk 3 ayı ərzində 1 kənd mərkəzi istifadəyə verilib, 2 kənd mərkəzinin inşası davam etdirilib, 4 kənd mərkəzinin inşasına başlanılıb.

Artıq muxtar respublikada güclü sahibkarlar təbəqəsi formalaşıb. 2020-ci ilin ilk rübündə muxtar respublikada sahibkarlara 12 milyon 167 min 500 manat kredit verilib. Verilmiş kreditin 7 milyon 306 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 4 milyon 861 min 500 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. Bu dövrdə 14 hüquqi və 697 fiziki şəxs qeydiyyata alınıb.

Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126-sı ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib.

Muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərmişdir.

Bu gün sahibkarlıq subyektlərində rəqabətədavamlı və ixracyönümlü məhsul istehsalı başlıca məsələ kimi qarşıya qoyulub və buna nail olunub. Bu səbəbdəndir ki, 2020-ci il muxtar respublikada "İxrac ili" elan edilib.

2020-ci ilin birinci rübündə muxtar respublikanın xarici ticarət dövriyyəsi 70 milyon 998 min 400 ABŞ dolları təşkil edib. Xarici ticarət dövriyyəsinin 53 milyon 530 min 700 ABŞ dollarını ixrac, 17 milyon 467 min 700 ABŞ dollarını idxal təşkil edib və 36 milyon 63 min ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Enerji təhlükəsizliyi də daim diqqət mərkəzində saxlanılıb, ötən dövrdə su və Günəş elektrik stansiyalarının tikintisi davam etdirilib. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın enerji təhlükəsizliyi sahəsində əldə etdiyi bu uğur Naxçıvanı enerji idxal edən diyardan enerji ixrac edən diyara çevirib.

*Budur, Naxçıvan 25 il ərzində müstəqillik yollarında inamlı addımlar ataraq tərəqqi zirvəsinə yüksəlib. Gül çələngli, çiçək ətirli doğma yurdum inkişaf və tərəqqi örnəyi kimi çağdaş zamanın astanasına qədəm qoyub. Üzümüzə yeni ülvi arzularla açılan hər nurlu sabah sevincli, müjdəli yeniliklərlə əlamətdar olur. Təbii ki, bu yenilikləri bir yazıya sığdırmaq mümkün deyil. Son iyirmi beş ildə paytaxt şəhərimiz, rayon mərkəzlərimiz, ən ucqar dağ və sərhəd kəndlərimiz, sözün əsl mənasında, yeniliklər dövrünü yaşayır. Və bir gənc kimi mən də naxçıvanlı olmağımla, Naxçıvanda yaşamağımla fəxr edirəm.*

**Türkan HÜSEYNLİ**



*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandir və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib. Məşğələlərdə əsas diqqət zabitlərin əməliyyat hazırlığına və bölmələrin idarə edilməsində praktik vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.*

# Komandir hazırlığı sistemində məşğələlər keçirilib

Məşğələ zamanı müxtəlif təlim yerlərində ayrı-ayrı fənlər üzrə dərslər keçilib, 60, 82 və 120 millimetrlik minaatanlara quraşdırılmış simulyatorlar vasitəsilə praktik atışlar yerinə yetirilib. Səhra şəraitində bölmələrin qidalanmasının təşkili, şəxsi heyətin yemək və su tələbatının ödənilməsi məqsədilə arxa komanda məntəqəsi açılıb.

Məşğələlər çərçivəsində tərkibinə hava hücumundan müdafiə vasitələri və minaatanlar verilmiş motoatıcı bölüyün müdafiə döyüşünün planlanması, hazırlanması, keçirilməsi və idarə edilməsi metodikası praktik olaraq göstərilib. Bölüyün döyüş atışlı taktiki təliminin ssenarisinə əsasən motoatıcı bölüyün dayaq məntəqəsinə düşmənin bir tabora qədər qüvvəsi pilotsuz uçuş aparatlarının və artilleriya atəş zərbələrinin dəstəyi ilə hücum edir.

Düşmən artilleriyasını susdurmaq və hava zərbələrini dəf etmək məqsədilə zenit qurğularından, minaatanlardan, piyadanın döyüş maşınlarından və digər atəş vasitələrindən tapşırıqlar yerinə yetirilir. Düşmənin üstün qüvvələrinin hücumunu dəf edərək maksimal itkiyə məruz qoymaq, dayaq məntəqəsini əldə saxlamaqla sonrakı fəaliyyətlər üçün əlverişli şərait yaratmaq məqsədilə müdafiə döyüşü aparılır.

Motoatıcı bölüyün ehtiyatda olan taqımı döyüşə yeridilərkən düşmənin hava kəşfiyyat vasitələri tərəfindən müşahidə edilərək artilleriya atəş zərbələrinə və kəşfiyyat-diversiya qrupunun basqınına məruz qalır. Aktiv fəaliyyətlərlə düşmənin kəşfiyyat-diversiya qrupu məhv edilir. Bölüyün döyüş atışlı taktiki təlimində yaranmış mürəkkəb şəraitdə şərti düşmənə etibarlı atəş zərbələri endirilir, dayaq məntəqəsi qarşısında düşmənin hücumu dayandırılır və beləliklə də, qarşıya qoyulmuş məqsədə nail olunur.

Məşğələlərə yekun vurulan zaman müdafiə döyüşünün komandirlərdən həm yüksək peşəkarlıq, həm də ortaya çıxan mürəkkəb taktiki şəraitdə soyuqqanlılıq və iradə göstərmələri, özlərini itirməmək bacarığını sərgiləmələrinin tələb edildiyi vurğulanıb. Döyüşün ən mürəkkəb və çətin növü sayılan müdafiə döyüşünün praktik olaraq göstərilməsi zamanı komandirlərin peşəkar idarəetmə, şəxsi heyətin yüksək səhra bacarığı nümayiş etdirməsi məşğələlərin sistemli şəkildə təşkil olunmasının əhəmiyyətindən xəbər verir.

**Nəriman NƏCƏFOV**

# Ədəbiyyatşünasımızın uğuru




AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayıl Rusiya Federasiyası Elmi ictimai təşkilatının "İnterclover" beynəlxalq layihəsinin diplomuna layiq görülüb.

Tədqiqatçı-alim 15 aprel 2020-ci il tarixdə Elmi-tədqiqat və tədris-metodik müəssisə əməkdaşlarının və ali məktəb müəllimlərinin iştirak etdiyi müsabiqəyə "Naxçıvan və Şərqi Anadolu dialekt və şivələrində söz yaradıcılığı problemi" adlı ingilis dilindəki monoqrafiyasını layihə şəklində təqdim edib.

Beynəlxalq müsabiqənin bu günlərdə açıqlanan nəticələrinə görə Zülfiyyə İsmayıl dilçilik və ədəbiyyatşünaslıq sahəsində II dərəcəli diploma layiq görülüb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Milli mədəniyyətimizin və tariximizin rəmzləri qorunur, yaşadılır

*Qoca Şərqin qapısı, İslam mədəniyyətinin əsas inkişaf mərkəzlərindən biri, qədim sivilizasiyaya malik Naxçıvan tarixin dəyərli abidələrini ən qiymətli sərvət, ata-babalarımızın yadigarları kimi özündə böyük məhəbbətlə qoruyub saxlayır. Müxtəlif dövrlərə aid çoxlu sayda tarixi və memarlıq abidələri – möhtəşəm qalalar, qayaüstü rəsmlər, daş qoç heykəllər, buzxanalar, hamamlar, qədim məscidlər, türbələr və digər nadir nümunələr keçmişdən gələcəyə körpü rolunu oynayır. Muxtar respublikamızda mütəmadi olaraq tarixi-mədəni abidələrin qorunması, tədqiqi, bərpası və tanıdılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Ötən ay Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən tarixi-mədəni irsimizə göstərilən qayğının daha bir ifadəsi kimi Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu türbəsi də bərpa olunub. Tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və təbliği sahəsində həyata keçirilən tədbirlər barədə AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevlə həmsöhbət olduq.*



***– Vəli müəllim, sizin fikrinizcə, Naxçıvanı ölkəmizin digər tarixi şəhərlərindən fərqləndirən nədir?***

– Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biridir. Araşdırmalar göstərir ki, Naxçıvan şəhəri ərazisində ilk məskunlaşmaya hələ eramızdan əvvəl VI minilliyin sonunda başlanılıb. Bu həmin ərazinin əlverişli təbii-coğrafi mövqeyi ilə bağlıdır. Naxçıvançayın sağ sahilində yerləşən bu ərazi Zəngəzur və Dərələyəz dağlarındakı mis və obsidian kimi faydalı qazıntılara yaxın olduğundan qədim dövrlərdən başlayaraq iqtisadi-mədəni əlaqələrin mərkəzinə çevrilib, bu əlaqələr isə Naxçıvan şəhərinin formalaşmasında mühüm rol oynayıb.

***– Naxçıvan özünün tarixi-mədəni abidələri, memarlıq nümunələri ilə seçilir, dünyada tanınır...***

– Bəli, bu qədim diyar xalqımızın tarixini, sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini yaşadan abidələri özündə cəmləşdirir. Ölkəmiz müstəqillik qazandıqdan sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin tövsiyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə göstərdikləri qayğı bu sahədə mühüm işlərin görülməsinə səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra bu sahəyə diqqət daha da artırılıb. Hazırda muxtar respublikamızda 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılıb ki, onların da bir qismi dünya əhəmiyyətli abidələrdir.

***– AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu tarixi abidələrimizin təbliğ edilməsi və tanıdılması istiqamətində hansı tədbirləri həyata keçirir?***

–İnstitutun əməkdaşları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamından irəli gələn vəzifələri yerinə yetirmək üçün muxtar respublikada olan abidələr haqqında ətraflı məlumatlar toplayıblar. Onların böyük bir qismi haqqında məlumatlar "Naxçıvan Abidələri Ensiklopediyası"nda əks olunub. Bundan başqa, "Naxçıvanın arxeoloji abidələri", "Naxçıvanın tarixi abidələri" adlı ümumiləşdirici əsərlərdə, həmçinin onlarla kitab və yüzlərlə məqalədə Naxçıvan abidələri haqqında həm Azərbaycanın, həm də dünyanın beynəlxalq elmi ictimaiyyətinə və geniş oxucu kütləsinə məlumat verilib. Naxçıvan abidələrinin əksəriyyəti haqqında internet resurslarında məlumatlar yerləşdirilib. Abidələrin tədqiqi, bərpası və qorunması işinin təşkili ilə əlaqədar televiziya və radioda mütəmadi çıxışlar təşkil edilir, elmi-kütləvi məqalələr yazılır. 2018-2020-ci illər ərzində institutumuzun əməkdaşları tərəfindən Naxçıvanın tarix və mədəniyyət abidələri ilə bağlı çoxsaylı vikipediyalar yaradılıb. Abi-



dələrimizin tədqiqində və vikipediyaların yaradılmasında Elmar Baxşəliyev, Turan Həşimova, Kamran Mehbalıyev, Aysel İsmayılova və digər gənclərimiz fəal iştirak edib. Bu iş hazırda davam etdirilir.

***– Bu yaxınlarda Ali Məclis Sədrinin tapşırığına əsasən ikinci həyat verilən Yusif Küseyir oğlu türbəsi barədə fikirlərinizi öyrənmək istərdik...***

– Yusif Küseyir oğlu türbəsi Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir. Türbə yeraltı və yerüstü hissələrdən ibarət olub, hər iki hissədə səkkizbucaqlı formada inşa edilib. Konstruktiv həllinin harmoniyası və gözəlliyi ilə diqqəti cəlb edən türbənin sərdabəsi yuxarıdan yastı olan günbəzlə örtülüb. Yerüstü hissəsi içəridən çatmatağ şəkilli sferik günbəzə, xaricdən prizmatik gövdəyə malik olan türbə səkkizüzlü piramidal örtüklə tamamlanıb. Həm içəridən, həm də xaricdən bişmiş kərpiclə üzlənib. Türbənin xarici səthinin hər biri müxtəlifşəkilli həndəsi ornamentlərlə bəzədilib. Bu ornamentlər kiçik kərpiclərdən quraşdırılıb, sonra gəc məhlulu ilə tavanlar şəklində birləşdirilərək səthlərin üzərində möhkəmləndirilib. Quruluş etibarilə türbənin qərb tərəfə baxan səthi fərqli şəkildə həll edilib və burada türbənin giriş qapısı yerləşdirilib. Çatmatağ şəkilli bu qapının üzərindəki kitabədə yazılıb: *"Bu türbə xacə, şanlı rəis, dinin zəkası, İslamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur"*. Həmin kitabə türbənin hicri 557-ci ilin şəvval ayında (miladi 1162) tikildiyini



***Abidənin bərpadan əvvəlki görünüşü***



bildirir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir" yazısı ilə türbənin memarının adı qeyd olunub. Onu da qeyd edim ki, Yusif Küseyir oğlu orta əsrlərdə Naxçıvan şəhərində yaşamış nüfuzlu dövlət və din xadimlərindən biri olub. Türbənin kitabəsində onun adının xacə, şanlı rəis, İslamın camalı, şeyxlər başçısı kimi epitetlərlə xatırlanması da Yusif Küseyir oğlunun dövrünün görkəmli ictimai-siyasi xadimi olduğunu göstərir.

***– Maraqlıdır, bu memarlıq nümunəsi Naxçıvandakı digər tarixi abidələrdən nə ilə fərqlənir?***

– Yusif Küseyir oğlu məqbərəsinin bəzəklərində şirli kərpiclərdən istifadə olunmayıb. Bu abidədə yazılar müxtəlifölçülü kərpiclərin hörgüyə düzülüşü nəticəsində əldə edilib. Memar taxçaların içərisini də naxış kompozisiyaları ilə yüngülləşdirib, künclərin vertikal ritmini, konstruktiv dəyərini artırıb. Bişmiş kərpiclə işlənən türbənin xarici səthlərində mürəkkəb kompozisiyalı həndəsi ornamentlərdən geniş istifadə olunsa da, kərpiclərin birrəngli olması onun görkəminə sadəlik verib, aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirib, ifadəli kolorit verib.

Prizmatik gövdə, piramidal günbəz, girintili-çıxıntılı üzlər, onları tamamlayan horizontal friz bol kölgə-işıq effekti yaradaraq abidənin baxımlılığını artırıb.

***– Tarix və mədəniyyət abidələrimizi bərpa etmək milli-mənəvi və mədəni dəyərlərimizə ən böyük ehtiramın ifadəsidir...***

– Doğrudur, muxtar respublikamızda tarix və mədəniyyət abidələrinin tədqiqi sahəsində xeyli işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə qayğısının nəticəsidir ki, hazırda Naxçıvanda bir neçə arxeoloji, o cümlədən iki beynəlxalq ekspedisiya fəaliyyət göstərir. Müstəqillik illərində abidələrimizin tədqiqi ilə yanaşı, onların qorunması və bərpası ilə bağlı xeyli işlər görülüb. Məlum olduğu kimi muxtar respublikamızda 70-dən artıq abidədə təmir-bərpa işləri aparılıb. Bunlar arasında Əlincəqala, Şeyx Xorasan xanəgahı, Xan sarayı, Ordubad buzxanası, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Naxçıvan şəhər buzxanası, Möminə xatın, Qarabağlar, Yusif Küseyir oğlu türbələri və onlarla digər abidələrimiz vardır. Tarix və mədəniyyət abidələrimizin bərpa olunması və gələcək nəsillərə çatdırılması olduqca təqdirəlayiqdir, muxtar respublikada tarixi-mədəni irsimizə göstərilən qayğının ifadəsidir. Abidələr bizim tariximiz, xalqımızın daş pasportlarıdır. Bu abidələri qorumaq, nəsillərdən-nəsillərə çatdırmaq bizim hamımızın borcudur.

***– Müsahibə üçün sağ olun.***

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Onlayn konsert maraqla qarşılanıb



Dünən Heydər Əliyev Sarayında Azərbaycan tarixində misilsiz xidmətləri olan dahi şəxsiyyət, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin onlayn konserti keçirilib.

Qeyd edək ki, repertuarında Avropa bəstəkarlarının əsərləri və klassik instrumental kamera musiqisinin də yer aldığı orkestrin bədii rəhbəri Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundovdur.

Rəngarəng konsert proqramında Azərbaycan və xarici bəstəkarların musiqi əsərləri, həmçinin xalq mahnıları təqdim olunub. Onlayn konsertdə ümummilli liderə həsr olunmuş nəğməkar bəstəkarımız Ramiz Mirişlinin "Adın şöhrət, şan yerimiz" və "Məşəl kimi yanan ürək", həmçinin İlham Abdullayevin "Heydər Ata" mahnıları da yer alıb.

Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva, Mübariz Əsgərov və Tural Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Ruhiyyə Hüseynova və digər ifaçılar, xor və rəqs qrupları ifalarını yüksək səviyyədə təqdim ediblər.

Konsert proqramı Naxçıvan Dövlət Televiziyası ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin internet resurslarında da canlı yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Onlayn seminar keçirilib

*Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ziyadxan Əliyev Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri üçün "Azərbaycan təsviri sənəti qədimlərdən bu günə" mövzusunda onlayn seminar keçib.*

Fakültənin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov seminarı giriş sözü ilə açaraq qeyd edib ki, Naxçıvanda professional rəssamlıq sənəti XX əsrin əvvəllərində yaransa da, bu sənətin köklərinin Gəmiqaya rəsmlərinə (eramızdan əvvəl VII-I minilliklər) qədər getdiyi qəbul edilməkdədir. Naxçıvanda professional rəssamlığın təşəkkülünün Bəhruz Kəngərlinin adı ilə bağlı olduğunu bildirən Əməkdar rəssam vurğulayıb ki, realist Azərbaycan rəssamlığının banisi Bəhruz Kəngərlinin əsər-



lərində dövrün koloriti, öncül mövzuları əksini tapıb. Onun yaradıcılığında mənzərə və portret janrları üstünlük təşkil edir.

Professor Ziyadxan Əliyev seminarda Azərbaycanın qədim incəsənət nümunələri sayılan, əcdadlarımızın yaratdığı bəşəriyyətin ən qədim insan məskənlərindən biri olduğunu sübut edən Qobustan qayaüstü rəsmləri, Gəmiqaya petroqlifləri haqqında danışıb, görkəmli rəssamların əsərlərini geniş təhlil edib.

Sonda müəllim və tələbələrin suallarına aydınlıq gətirilib.

**Səadət ƏLİYEVA**

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 347